

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 120 (21.781)

24 iyun 2017-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Şirvan şəhərinə səfərə gedib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 23-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Şirvan şəhərində yerləşən hərbi hissəsinin açılışında iştirak edib.

Dövlət başçısı iyunun 23-də Müdafiə Sənayesi Nazirliyinin "Şərq" İstehsalat Birliyinin Şirvan şəhərindəki 7V2 (RPQ) tipli tank əleyhinə əl qumbaraatanı üçün 4 növ qumbaralı atəş yığımlarının istehsalı zavodunun açılışında iştirak edib.

İyunun 23-də Şirvan şəhərində Müdafiə Sənayesi Nazirliyinin "Şərq" İstehsalat Birliyinin 40x46 millimetrlik MSGL 40 tipli qumbaraatanlar üçün müxtəlif növ qumbaralı atəş yığımlarının istehsalı zavodunun açılışı mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev açılış mərasimində iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Gürcüstanın Baş nazirinin müavini, təhsil və elm naziri Aleksandr Jejelavanı qəbul edib.




*24 iyun maşınqayırma sənayesi işçilərinin peşə bayramıdır*

## Maşınqayırma sənayesi iqtisadi inkişafın əsasını təşkil edir

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2012-ci il 19 noyabr tarixli Sərəncamına əsasən hər il iyunun 24-ü Azərbaycanda maşınqayırma sənayesi işçilərinin peşə bayramı kimi qeyd olunur.***



Maşınqayırma sənayesi bir-biri ilə qarşılıqlı əlaqədə olan energetika, elektrotexnika, radioelektronika, cihazqayırma, dəzgahqayırma, nəqliyyat, kənd təsərrüfatı texnikası və digər maşınqayırma sahələrini əhatə edir. Maşınqayırma ağır sənaye kompleksi olaraq əmək alətləri, istehlak predmetləri və müdafiə xarakterli məhsullar istehsal edən bir sahədir. Bu sahə, ümumilikdə, iqtisadiyyatın texniki təminat bazası olaraq, istehsalatda əmək məhsuldarlığını yüksəltməklə, insanların maddi rifahının yaxşılaşmasına xidmət edir.

Azərbaycanda sənayeləşmə siyasətinin əsası ötən əsrin 70-80-ci illərində ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Həmin dövrdə neft maşınqayırma kompleksi, dərin özüllər, məişət kondisionerləri, elektron hesablama maşınları zavodları istifadəyə verilmişdir. Sənaye sahələrinin şaxələndirilməsi həyata keçirilərək neft maşınqayırması ilə yanaşı, dəzgahqayırma, elektrotexnika və elektronika, cihazqayırma, yol-inşaat maşınları və digər sahələr inkişaf etdirilmişdir. Regionların sənaye potensialının yüksəldilməsi kimi uzaqgörən siyasət həyata keçirilərək böyük şəhərlərdə iri sənaye kompleksləri yaradılmışdı. Bu gün də ölkəmizdə sənayenin, xüsusilə də maşınqayırma sənayesinin inkişafı sahəsində ardıcıl tədbirlər görülür.

Ölkəmizin müasir sənayeləşmə hərəkatına Naxçıvan Muxtar Respublikası da öz töhfələrini verir. Muxtar respublikanın şəhər və rayonlarında yaradılmış sənaye müəssisələri daxili tələbatı ödəməklə yanaşı, ixracyönümlü məhsul istehsalına da imkan verir. Gəmiqaya Sənaye Kompleksi, Cahan Sənaye Kompleksi, Dizayn Sənaye Kompleksi, Naxçıvan Sənaye Kompleksi, Naxçıvan Avtomobil Zavodu və digər müəssisələrin yaradılması muxtar respublika sənayesinin növbəti mərhələdə daha dərin şaxələndirmə siyasətinin həyata keçirilməsinə geniş imkanlar yaratmışdır.



Muxtar respublika sənayesinin əsas halqasını formalaşdıran və inkişafda olan maşınqayırma sahəsində ciddi nailiyyətlər əldə edilmişdir. Son illərdə yeni və müasir avadanlıqlarla təchizat, son texnologiyaların tətbiqi maşınqayırma müəssisəsinin həm istehsal gücünü, həm də yeni çeşiddə məhsullar istehsal etmək imkanını artırmışdır. Hazırda maşınqayırma sənayesində rəqabətqabiliyyətli məhsullar istehsal edilir. Əsasən də avtomobillərin istehsalı xüsusi əhəmiyyət daşıyır. Azərbaycanda minik avtomobilləri istehsal edən yeganə müəssisə olan "Lifan" avtomobillərinin istehsalı maşınqayırma sənayesinin inkişafında xüsusi çəkiyə malikdir. 2010-cu ildə Naxçıvanda avtomobil zavodunun yaradılması nəqliyyat vasitələrinə artan tələbin daxili istehsal hesabına ödənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Naxçıvan Avtomobil Zavodunda 2010-cu ildə 4 modeldə avtomobil istehsal olunurdusa, hazırda zavodda 15 modeldə "NAZ-Lifan" avtomobili istehsal edilir.

Zavod Azərbaycanda yeganə müəssisədir ki, avtomobillərin bütün hissələri burada yığılır. Bu da zavodda istənilən modeldə minik və yük avtomobillərinin istehsalına imkan verir. Hazırda istehsal olunan maşınların daha münasib qiymətə istehlakçılara təqdim olunması ilə əlaqədar layihələr hazırlanır. Müəssisədə möhürləmə, qaynaq və boyama sahələrinin yaradılması istiqamətində işlər davam etdirilir. Həmçinin avtomobilin müəyyən hissələrinin Naxçıvanda istehsal edilməsi nəzərdə tutulur. Xaricdə istehsal olunan avtomobillərdən daha ucuz qiymətə satışa çıxarılan "NAZ-Lifan" markalı minik avtomobillərinə tələbat ildən-ilə artır. Bu isə onu göstərir ki, həmin markalı avtomobillər maşın bazarında artıq özünəməxsus yerə malikdir.

Hazırda ölkəmizdə avtomobil bazarı daha çox xarici ölkələrin istehsal məhsulları hesabına təmin olunsa da, yaxın illərdə yerli və müştərək müəssisələrin istehsal fəaliyyətinin güclənməsi nəticəsində milli brendlər daxili bazarda xüsusi yer tutmağa başlamışdır. Dünyanın ən nəhəng maşınqayırma müəssisələrinin Azərbaycanda öz istehsal sahələrini yaratmaq niyyətlərinin gerçəkləşməsi isə bu sahənin yüksək inkişafını təmin edəcəkdir. Onu da nəzərə almaq lazımdır ki, maşınqayırma sənayesinin davamlı şəkildə inkişafı minlərlə yeni iş yerlərinin açılması deməkdir. Bu isə insanların məşğulluğunun təmin olunması, sosial vəziyyətlərinin yaxşılaşması baxımından mühüm əhəmiyyət kəsb edir.

*Peşə bayramlarını qeyd edən maşınqayırma sənayesi işçiləri bundan sonra da istehsal çeşidlərinin və həcminin artırılması, ixrac potensialının genişləndirilməsi məqsədilə daha səylə çalışacaqlar.*

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Sədərək gömrük sərhəd-buraxılış məntəqəsi üçün tikilən yeni kompleksdə işlər sürətləndirilib

Yeni infrastruktur "bir dayanacaq" prinsipinə uyğun qurulan, yük xətti və anbarlardan, sərnişinlərin keçid zallarının da yerləşdiyi inzibati binadan, yoxlama-baxış sistemləri bölməsindən və rüsumsuz ticarət mağazasından ibarət müasir gömrük kompleksidir. Gömrük nəzarəti və rəsmiləşdirilməsinin texnoloji sxeminə uyğun olaraq giriş-çıxış zolaqları bir-birindən ayrı nəzərdə tutulub. Üç zolaqla sərnişin və minik, iki zolaqla yük-nəqliyyat vasitələri hərəkət edəcək. Sərnişin keçid zalları kompleksin ortasında – üçmərtəbəli inzibati binanın birinci mərtəbəsindədir. Gömrük nəzarəti zonasında sərnişinlərin hərəkəti üçün tunellər yaradılacaq, yaşıl və qırmızı kanallar formalaşdırılacaq. Yük xətti, əsasən, rəsmiləşmə zalı və anbar binasından ibarətdir. Tranzit və idxal istiqamətində gələn və əksistiqamətdə hərəkət edən avtonəqliyyat vasitələrinin hərəkəti bir-birindən ayrı nəzərdə tutulub. Yük xətti üzərində iritonnajlı avtomobillərlə daşınan yüklərə gömrük nəzarətini həyata keçirməkdən ötrü X-Ray rentgen nəzarət-yoxlama kompleksi qurulub.



Qanunvericiliyə əsasən, gömrük nəzarətindən güzəştli qaydada keçməli olan şəxslərə xidmətin göstəriləcəyi binada və yeməkxanada, anbar və rəsmiləşdirmə zalının tikinti işləri artıq yekunlaşdırılıb. Hazırda inzibati binanın, o cümlədən keçid zallarının tikintisi davam etdirilir. Kompleksin ərazisində əlavə yardımçı binalar da inşa olunacaqdır.

## Muxtar respublikada taxıl biçini mütəşəkkilliklə aparılır

Muxtar respublikada aqrar sahədə həyata keçirilən tədbirlərin əhatə dairəsi xeyli genişləndirilib, bol məhsul istehsalı üçün zəmin yaradılıb. Yeni suvarma şəbəkələrinin qurulması kənd təsərrüfatı bitkilərinin, xüsusilə də əsas ərzaq məhsulu olan taxıl əkini sahələrinin artırılmasına səbəb olub. Meliorativ tədbirlərin görülməsi hesabına uzun müddət əkilməyən torpaq sahələri əkin dövriyyəsinə qatılıb. Ötən ilin payızında və bu ilin yazında əkin zamanı keyfiyyətli və məhsuldar toxum sortlarından istifadə edilib, sahələrdə vaxtlı-vaxtında suvarma və aqrotexniki qulluq işləri görülüb. Bütün bu görülən işlər nəticəsində zəmilərdə bol məhsul yetişib. Taxıl biçini ilə bağlı bölgələrimizdən gələn xəbərlər bunu deməyə əsas verir.

Babək Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, rayon ərazisində hər il taxıl əkini sahələrinin genişləndirilməsi, məhsuldarlığın artırılması istiqamətində ardıcıl tədbirlər görülür, müasir kombaynlar alınır. Bu da bol məhsul istehsalına, biçin kampaniyasının vaxtında və itkisiz başa çatdırılmasına imkan verir. Kombaynçılar və mexanizatorlar yaradılan bu şəraitdən səmərəli bəhrələnir, məhsuldar işləyir, yanğın təhlükəsizliyi qaydalarına əməl etməklə taxıl biçininin vaxtında başa çatdırılması üçün səy və bacarıqlarını əsirgəmirlər.

Məlumatda o da bildirilir ki, aqrar rayon olan Babəkdə 2017-ci il üçün 10 min 195 hektar sahədə payızlıq taxıl əkilib. Bunun da 6 min 964 hektarını buğda, 3 min 231 hektarını arpa təşkil edir. Biçinin itkisiz başa vurulması üçün tədbirlər görülür. Hazırda biçinə cəlb edilən kombaynların 2-si "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə, 13-ü isə hüquqi və fiziki şəxslərə məxsusdur. İyunun 22-nə olan məlumata görə, Babək rayonunda 426 hektar sahədə taxıl biçini həyata keçirilib. Hazırda rayonda taxıl biçini davam etdirilir.

Kəngərli Rayon İcra Hakimiyyətindən qəzetimizə bildirdilər ki, bölgənin 4364 hektar məhsuldar torpaq sahəsində taxıl əkini aparılıb. Bunun 2314 hektarını buğda, 2050 hektarını arpa sahəsi təşkil edir. Bir neçə gündür ki, rayonda taxıl tədarükünə başlanılıb. İyunun 22-nə olan məlumata görə, 202 hektar sahənin məhsulu tədarük edilib. Rayonun Xok, Böyükdüz, Şahtaxtı, Qıvraq kəndlərində məhsuldarlıq daha yüksəkdir. Bazar günündən etibarən biçinin optimal müddətdə başa çatdırılması üçün yeni kombaynlar cəlb ediləcək.

Xatırladaq ki, Şahbuz rayonunda yaxın günlərdə taxıl biçininə start veriləcək. Ümumiyyətlə, bu il muxtar respublika üzrə 31 min 632 hektar sahədə taxıl biçini aparılacaqdır ki, bunun da 22 min 268 hektarı buğda, 9 min 364 hektarı isə arpa əkinləridir.

✍ **Səbuhi HÜSEYNOV**

***Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 26 iyun tarixli qərarı ilə Əlahiddə Azərbaycan Korpusu yaradılmış, bununla da, Milli Ordumuzun əsası qoyulmuşdur. 1920-ci ildə ölkəmiz Sovet Rusiyası tərəfindən işğal edildikdən sonra Azərbaycanın hərbi nazirliyi rəsmən ləğv edilərək, həmin funksiya Xalq Hərbi Komissarlığına verilmiş, Azərbaycan Ordusunun 21 generalından 15-i bolşeviklər tərəfindən güllələnmişdir.***

*26 İyun – Azərbaycan Respublikası Silahlı Qüvvələri Günüdür*

# Ordumuz qürur mənbəyimizdir

Ümummilli liderimiz Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanı ilə Əlahiddə Azərbaycan korpusunun yarandığı tarix – iyunun 26-sı Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü elan olunmuşdur.

Güclü, qüdrətli ordusu olmayan dövlət öz müstəqilliyini qoruyub saxlamaq iqtidarında deyil və gec-tez məhvə məhkumdur. Dövlətin özünü qoruması üçün, ilk növbədə, mütəşəkkil orduya ehtiyacı var. Bunun üçün də hər bir müstəqil dövlət öz ordusu ilə tanınır, nüfuz qazanır. Azərbaycanın zəngin dövlətçilik tarixində də güclü, mütəşəkkil ordunun yaradılması hər zaman prioritet məsələlərdən olmuşdur. Digər sahələrdə olduğu kimi, ölkəmizdə güclü, peşəkar və yüksək döyüş hazırlığına malik ordunun yaradılması, formalaşdırılması və inkişafı da görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Güclü siyasi iradəyə, yüksək sərkərdəlik məharətinə malik dahi şəxsiyyətin ölkəmizdə ilk dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ildən başlanan tarixi mərhələ həm də Azərbaycanın nizami ordusunun formalaşdırılması kimi əlamətdar olmuşdur. Təbii ki, Sovetlər Birliyi dövründə milli ordudan söz açmaq mümkün deyildi. Lakin o dövrdə azərbaycanlı gənclərin hərb elminə marağının artırılması və bunun üçün real şəraitin yaradılması dahi rəhbərin gələcəyə hesablanmış uzaqgörən siyasətinin tərkib hissəsi idi. Ötən əsrin 70-ci illərində Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması, bu mənada, mühüm əhəmiyyət daşıyır. Dahi liderin birbaşa şəxsi təşəbbüsü ilə o dövrdə hazırlanan hərbi kadrlar sonradan müstəqil Azərbaycanın qüdrətli Milli Ordusunun peşəkar komandan heyətini təşkil etmişdir.

Milli ordumuzun yaradılmasına ötən əsrin 90-cı illərində ulu öndərin rəhbərliyi ilə Naxçıvanda başlanılmışdır. Xalqımızın böyük oğlu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçiləndən cəmi 4 gün sonra – 1991-ci il sentyabrın 7-də Naxçıvan Müdafiə Komitəsi yaradılmış, 1992-ci il sentyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında” Qərar qəbul edilmişdir. Həmin ilin oktyabr ayının 9-da isə Naxçıvan şəhərində ilk hərbi parad keçirilmişdir. 1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumlarından biri olan 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edilmiş və Dövlət Müdafiə Komitəsinin bütün əmlakı 705 saylı hərbi hissəyə təhvil verilmişdir.

1991-1993-cü illərdə ölkəmizdə hakimiyyətdə olanların səriştəsiz siyasəti nəticəsində ordu quruculuğu diqqətdən kənarda qalmışdı. 1993-cü ildə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə ikinci dəfə qayıdışından sonra Azərbaycanda Silahlı Qüvvələrin təşkili prosesi yeni vüsət almış, ordu quruculuğu prosesi vacib və zəruri məsələ kimi diqqət mərkəzində saxlanılmış, hərbi təhsil sistemi yenidən qurulmuş, bu istiqamətdə mühüm tədbirlər həyata keçirilmişdir. Dahi şəxsiyyətin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin strukturu tam formalaşdırılmış, bütün növ hərbi birləşmələr, piyada, tank, artilleriya qoşunları, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qoşunları, əlahiddə taborlar yaradılmış, hərbi hissələr komplektləşdirilmişdir. Görkəmli dövlət xadiminin rəhbərliyi ilə qısa müddətdə ordunun qanunvericilik bazası yaradılmış, “Silahlı Qüvvələr haqqında”, “Hərbi xidmət haqqında”, “Hərbi qulluqçuların statusu haqqında” qanunlar qəbul edilmişdir. Bununla yanaşı, Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq əlaqələrinin qurulması da diqqət mərkəzində saxlanılmış, 1994-cü ildə Azərbaycan Respublikası NATO-nun “Sülh Naminə Tərəfdaşlıq Proqramı”na qoşulmuşdur. Hazırda Silahlı Qüvvələrimizin sülhməramlıları müxtəlif münaqişə zonalarında öz missiyalarını uğurla yerinə yetirirlər.



Ümummilli lider Heydər Əliyevin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizin dinamik inkişafı Silahlı Qüvvələrin büdcəsinin artmasına və nəticə etibarilə, ordumuzun güclənməsinə şərait yaratmışdır. Ordu quruculuğu sahəsində görülən işlər Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Hərbi hissələrin maddi-texniki təminatı möhkəmləndirilir, əsgəri-məişət-yaşayış kompleksləri tikilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, şəxsi heyətin döyüş və mənəvi hazırlığı əhəmiyyətli dərəcədə artırılır.



Dövlət başçısının “Azərbaycan Respublikası Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən, 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordusunun yaradılması Naxçıvanın müdafiə potensialının, hərbi hissələrin döyüş hazırlığının daha da yüksəlməsinə əsaslı zəmin yaratmışdır. Ölkə Prezidenti bu barədə demişdir: ***“Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda Əlahiddə Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir. Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır”.***

Bu gün Əlahiddə Ümumqoşun Ordusunun döyüş qabiliyyətinin artırılması istiqamətində ardıcıl tədbirlər görülür. Muxtar respublika ərazisindəki hərbi hissələrin maddi-texniki təminatı möhkəmləndirilir, əsgəri-məişət-yaşayış kompleksləri tikilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, şəxsi heyətin döyüş və mənəvi hazırlığı əhəmiyyətli dərəcədə artırılır. Bir faktı qeyd etmək yerinə düşər ki, son illər muxtar respublikanın etibarlı müdafiə təminatı ilə bağlı həyata keçirilmiş tədbirlər çərçivəsində yüzlərlə hərbi obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir.

Naxçıvanda xalq-ordu birliyi özünün ən yaxşı ifadəsini tapmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tez-tez sərhəd bölgələrindəki hərbi hissələrdə olması, xidmətin vəziyyəti, əsgərlərin həyat tərzi və problemləri ilə mütəmadi olaraq maraqlanması şəxsi heyətə mənəvi-psixoloji dəstək verməklə onlarda vətənpərvərlik hisslərinin daha da güclənməsinə səbəb olur.



Muxtar respublikada hərbi kadrların yetişdirilməsi məsələsi də daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə Heydər Əliyev adına Hərbi Liseyin maddi-texniki bazası möhkəmləndirilmiş, kursantlar üçün müasir tədris, rahat məişət və yaşayış şəraiti yaradılmışdır. Artıq hərbi lisey ölkəmizdə gələcəyin peşəkar zabitlərinin yetişdirilməsinə mühüm töhfə verən mötəbər təhsil ocağıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***“Bu gün müstəqil Azərbaycanda ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür. Ölkə Prezidentinin rəhbərliyi ilə ordumuz inkişaf edərək ən müasir səviyyəyə gəlib çatmışdır. Ən yeni silah və texnika ilə təminat, vətənpərvər və peşəkar şəxsi heyət, hərbi qulluqçulara davamlı qayğı Azərbaycan Ordusunun reallıqlarıdır. Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisindəki ordu və birləşmələri də mühüm təşkilatlanma yolu keçərək daha da möhkəmlənmişdir”.***

Milli Ordumuz güvənc yerimiz, qürur mənbəyimizdir. Biz belə bir qüdrətli ordu ilə Vətənimizi düşməndən qorumağa həmişə hazırıq. Bu gün ordumuzun qarşısında çox mühüm vəzifələr durur. Əsas vəzifə torpaqlarımızın düşmən əsarətindən azad edilməsidir. Bu vəzifəni layiqincə yerinə yetirmək üçün ölkəmizin hər cür imkanı, ən əsası isə qüdrətli ordusu vardır.

**“Şərq qapısı”**

# Vətən Azərbaycan əsgərinin and yeridir

***Ana sözü ilə qoşa səslənən Vətən bizim üçün həmişə müqəddəsdir. Ona görə də Vətən daim göz bəbəyi kimi qorunur. Azərbaycan əsgəri də Vətəni dərin məhəbbətlə sevir və onu inamla qoruyur. Hazırda hər bir Azərbaycan əsgəri sinəsini Vətənə sipər edib. Hər əsgər üçün Vətənin müqəddəsliyi onun yaşam fəlsəfəsidir. Qətiyyətlə demək olar ki, Azərbaycan əsgəri ona tapşırılmış mövqedə sayıqlıqla dayanıb.***

Düşmənin hər bir hərəkətini müşahidə edən, onu daim nəzarətdə saxlayan Azərbaycan əsgəri üçün ən böyük vəzifə torpağı qorumaqdır. Yayın bürküsündə, qışın sazağında səngərdə gecələyən əsgərlərimiz bunu özünə müqəddəs vəzifə hesab edir.

Əgər əsgər taktiki cəhətdən çəld və çevik, fiziki cəhətdən möhkəm və qüvvətli, atıcı kimi səbirli və mahirdirsə, silah və texnikanı mükəmməl bilirsə, siyasi cəhətdən ayıq-sayıq, prinsipial və vətənpərvərdirsə, o, psixoloji olaraq mükəmməl formada döyüşə hazırdır. Mənəvi-psixoloji, fiziki və taktiki cəhətdən hazırlıqlı olan əsgər döyüş əməliyyatları zamanı döyüş zolağının diktə edəni, aparıcı qolu olmaqla yanaşı, həm də yanındakı döyüşçü yoldaşlarının lideri, örnəyi və sevimlisidir. Tarixə nəzər salanda görürük ki, torpağın, Vətənin, millətin, dövlətin taleyi həmişə cəsur döyüşçülərin, ağıllı sərkərdələrin, müdrik dövlət başçılarının, uzaqgörən siyasətçilərin çiyinləri üzərindədir.

Dünyanın böyük fatehlərindən biri olan Çingiz xan psixoloji olaraq döyüşə hazır olmağın sirrini belə qiymətləndirirdi: “Bir mismar bir nalı, bir nal bir atı, bir at bir sərkərdəni, bir sərkərdə bir qoşunu, bir qoşun bir dövləti saxlayır”. Yəni bir dövlətin sarsılmazlığı və qüdrəti həm də əsgərlərin ayrı-ayrılıqda döyüşə hazırlığı, təminat və təchizatından asılıdır. Bu gün biz bunu başqa formada ifadə edirik. Belə ki, yüksək döyüş hazırlıqlı, hərtərəfli təmin və təchiz olunmuş əsgərin tərbiyə işini mənəvi-psixoloji təminat adlandırırıq. Sadə dillə desək, əsgər əlində tutduğu silahdan düzgün istifadəni mükəmməl qaydada bilməli, daim döyüşə hazır olmalıdır. Azərbaycan əsgəri məhz belədir.



Əsgər torpaq qədər müqəddəsdir, çünki torpaq üzərinə onun qanı tökülür. Torpaq öz gücünü, qüdrətini, dəyərini əsgərdən, əsgər qanından, əsgər dəyanətindən alır. Vətənin şərəfi də, şöhrəti də məhz belə oğullar, belə qəhrəmanlardır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi: ***“Əgər qan tökülməsə, o Vətən Vətən deyil, şəhid olmasa, o Vətən müstəqil dövlət ola bilməyəcək”.*** Vətənimizin, millətimizin, dövlətimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda minlərlə oğul və qızlarımız öz arzu və istəyini, amalını qurban verərək canından keçib. Körpə bir uşağın dilində ilk dəfə səslənən “ana” sözü nə qədər şirin və ecazkardırsa, hər bir əsgər tərəfindən qürurla səslənən “Vətən” sözü də bizim üçün onun qədər doğma və əzizdir.

Vətənin müdafiəçisi olan əsgərin Vətəni tərənnüm edən fikir və ifadələri müqəddəsdir. Çünki əsgər Vətəni qoruduğu kimi, onu vəsf etməyi bacarırsa, deməli, onun uğrunda ölməyə və öldürməyə daim hazırdır.

Əvvəldə dediyimiz kimi, əsgər öz Vətəni, torpağı uğrunda döyüşdə düşmənə qarşı mübarizə aparanda o, yalnız bir şeyi düşünür – Vətəni, torpağı qorumaq, müdafiə etmək, düşmənə bir addım da olsun, irəli keçməyə imkan verməmək. Həmin anda əsgərin gözü önündə onun şəxsi arzuları yox, yalnız milli dövlətçilik maraqları dayanır. Çünki hər şey torpağın üzərindədir. İlk növbədə, bizim arzularımız, istəklərimiz millətimiz, dövlətimiz, elmimiz, mədəniyyətimiz, incəsənətimiz, nəyimiz varsa, hamısı bu torpağın üzərindədir. Əgər bu torpaq varsa, yuxarıda sadaladığımız hər şey bizimdir, bizimlədir və bizim olacaq. Yox, əgər torpaq düşmən əlinə keçərsə, dediklərimizin heç birisi nə bizim olacaq, nə də bizimlə olacaq. Torpağı və Vətəni olmayan insan necə yaşaya bilər?

Azərbaycan xalqı hər zaman qəhrəmanları ilə öyünüb, onlarla qürur duyub. Buna onun haqqı var. Çünki qəhrəmanlıq hər kəsə qismət olmur. Qəhrəmanlıq Vətən naminə ölümün gözünə dik baxaraq bu zirvəni fəth edənlərin məkanıdır. Bu gün sərhədləri müdafiə edən əsgərlərimiz də qəhrəmandır. Ötən ilin aprel döyüşlərində aparılan hərbi əməliyyatlarda qəhrəman Azərbaycan Ordusunun düşmənə endirdiyi ağır sarsıdıcı zərbələr bir daha göstərdi ki, Azərbaycan əsgəri sarsılmaz və yenilməzdir.

**Mirqiyas RÜSTƏMOV**
*polkovnik*

*Naxçıvan Muxtar Respublikasının ərazisində türk-islam mədəniyyətini əks etdirən çoxsaylı tarixi-memarlıq abidələri mövcuddur. Bu mühüm maddi və eyni zamanda mənəvi sərvətlərimizin sırasında muxtar respublikanın müxtəlif bölgələrində yerləşən imamzadələrin özünəməxsus əhəmiyyəti, xüsusi yeri vardır. Naxçıvanın on üç əsrdən artıq bir dövrünü özündə təcəssüm etdirən bu dəyərli abidələr yalnız ölkəmizin deyil, bütövlükdə, müsəlman Şərqinin qədim sənətkarlıq, xüsusilə də memarlıq ənənələrinin, çoxəsrlik tarixi keçmişinin yadigarlarıdır.*

*İmamzadə “imam” (ərəb) və “zadə” (fars) sözlərinin birləşməsindən yaranan imam oğlu və ya övladı deməkdir. İmam övladlarının Azərbaycanda, xüsusilə də Naxçıvanda dəfn edilməsinə gəldikdə isə bunun da səbəbi var. Belə ki, yeddinci imam Museyi-Kazım hicri-qəməri 183-cü ildə (miladi 789-800-cü illərdə) xəlifə Harun ər-Rəşid zamanında öldürüldükdən sonra onun övladları təqib olunublar. Bu səbəbdən imam övladları onlara hörmətlə yanaşılan yerlərdə, o cümlədən Naxçıvanda məskunlaşmalı olublar. İmam nəslindən olanlar vəfat edəndən sonra qəbirləri əsrlərdir ki, yerli əhali tərəfindən müqəddəs tutularaq ziyarət yerlərinə çevrilib.*

*Tarixi abidələrimiz milli sərvətimizdir*

# Naxçıvanın İslam mədəniyyəti nümunələri:




### Naxçıvan şəhər imamzadəsi

Naxçıvan şəhər İmamzadə Kompleksi şəhərin cənub-şərq hissəsində, qədim Naxçıvan qalasının qərb tərəfində yerləşir. Memarlıq üslubuna görə XVI-XVIII əsrlərə aid edilən bu dini-memarlıq abidəsi 3 binadan ibarətdir. Abidənin cənub tərəfində yerdən dördbucaqlı formada yuxarısı silindrşəkilli inşa olunan türbə onun əsas hissəsini təşkil edir. Üzərində Bərdə və Şeyx Səfi türbələrində olduğu kimi, xalını xatırladan bəzək ünsürü və kufi xətti ilə dəfələrlə təkrarlanan “Allah” sözü işlənib. Türbənin içərisində uzunluğu 150, hündürlüyü 88, eni 115 santimetr olan sənduqətipli bir qəbir vardır. Sonradan bərpa edilmiş bu məzarın kitabəsi olmadığı üçün onun kimə məxsusluğu üzərində yazılmayıb. Yerli əhalinin bildirdiyinə görə, bu, şiələrin səkkizinci imamı İmam Rzanın oğlunun qəbridir. Abidənin xalq arasında “İmamzadə” adlandırılması da bu fikri təsdiq edir. Bu barədə məlumatı rus alimi V.M.Sısoyev də XIX əsr rus şərqşünası N.V.Xanıkova istinad edərək təsdiq etmişdir. O, həmçinin burada olan böyük qəbrin üzərində yazısı olan sarı mərmər daşdan sinədaşı və qəbrin yanında əhali tərəfindən müqəddəs sayılan iki ədəd qara daşın olduğunu da yazmışdır. Təəssüf ki, həmin kitabə günümüzədək gəlib çatmamışdır. İndiki vəziyyətdə qəbir qara mərmər daşla üzlənmişdir.

İmamzadə kompleksinin əsasını təşkil edən bu türbənin inşa edilmə tarixinə gəldikdə, keçən əsrin 20-ci illərində Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin göndərişi ilə Naxçıvanda olmuş epiqraf İ.Əzimbəyovun tədqiqatından aydın olur ki, vaxtilə onun üzərində – şimal-qərb tərəfində nəsx xətti ilə yazılmış kitabəsi olmuşdur. Həmin kitabəyə əsasən bu abidə Səfəvi şahı II Təhmasibin zamanında, yəni 1722-1732-ci illərdə Hacı Fulad bəyin oğlu (Həzrət Rufai) tərəfindən inşa edilmişdir. Son illər türbə təmir edilərkən İ.Əzimbəyovun məqaləsindən istifadə edilərək onun əvvəlki kitabəsinin yerinə yenisi vurulmuşdur.

Bu türbəyə bitişik kompleksin dördbucaqlı formasında olan birinci salonu ondan şimalda yerləşir. Türbədən ona, təxminən, 1,5 metr ucalığında giriş qapısı vardır. Yəni türbəyə giriş onun şimal tərəfində olan yeganə qapısındandır. Birinci salondan şimalda isə ona bitişik, həm eni, həm də uzunluğuna görə ondan nisbətən böyük olan ikinci salon yerləşir. Birincidən fərqli olaraq ikinci salonun mərkəzində böyük günbəz vardır. Kompleksə giriş qapısı bu salonun qərb tərəfindəndir. İmamzadə kompleksində başqa bir qəbir yoxdur. Amma V.M.Sısoyevin yazdığına görə, bu hissədə Naxçıvan xanlarının məqbərəsi olmuşdur. Müəllif Naxçıvan xanlarından Mustafa Qulu xan Naxçıvanskinin oğlu Abbasqulu xanın orada dəfn edildiyini qeyd etmiş, yan divarlarda taxçalar, şimal divarda buxarı olduğunu yazmışdır. İndiki vəziyyətdə divarlardakı taxçalar qalır, buxarı isə yoxdur. Buradakı qəbri ziyarət zamanı kişilər birinci salonda, qadınlar isə ikinci salonda ibadət edirlər.

İmamzadə kompleksindən şimalda, ondan bir neçə metr yüksəkdə, yerdən dördbucaqlı formada, həmin dördbucağın üzərində altıbucaqlı və başı soğanvarı formada bir türbə vardır. Üzərində heç bir kitabəsi olmayan bu türbə ikiqapılıdır. Daha doğrusu, onun zirzəmi hissəsinə giriş qərb tərəfindən, üst hissəsinə giriş isə şimal tərəfindəndir. İçərisində qəbir yoxdur. Nisbətən daha salamat qalmış bu türbədə alt zirzəmi hissə sərdabə ola bilər. Bu haqda V.M.Sısoyev yazır ki, imamzadəyə yaxın, çox da böyük olmayan, yarıaçıq vəziyyətdə bir məzarüstü tikili, onun içində isə torpağın üzərində üstünə mumya çəkilmiş bütöv bir cəsəd vardır. Sısoyevin eşitdiklərinə görə, əvvəllər cəsədi çıxarıb Kərbəla və ya Nəcəfə aparmaq istəyiblər, lakin 1918-ci il hadisələri buna mane olmuş və cəsəd bu vəziyyətdə qalmışdır. Deyilənlərə görə, bu, şiə müqəddəslərindən birinə aiddir. Onun alt qatında, yəni zirzəmi hissəsində qəbir, yuxarı hissəsində qəbirüstü ziyarət yeri olmuşdur.

Qeyd edək ki, imamzadə kompleksində və onun yaxınlığında yerləşən hər iki türbə orada dəfn edilmiş müqəddəs insanların şərəfinə inşa edilmişdir. Bu, həmin müqəddəslərə böyük hörməti olan insanların və dövrün hakim dairələrinin istəyindən yaranmışdır. Yəni qəbirüstü türbələr əvvəl tikilmişdir.

### Nehrəm imamzadəsi

Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən digər böyük imamzadələrdən biri də Babək rayonunun Nehrəm kəndindədir. AMEA-nın muxbir üzvü F.Səfərlinin tədqiqatlarından aydın olur ki, bu imamzadə də Naxçıvan imamzadəsi ilə bir dövrdə – Səfəvi şahı II Təhmasibin zamanında inşa edilmişdir. Kənddəki qəbiristanlığın mərkəzində yerləşən bu imamzadə türbə, məscid, təkyə və başqa yardımçı binalardan ibarət böyük bir kompleksdir. Burada da kompleksin əsasını eni 8, uzunluğu 9,5, hündürlüyü 4,5 metr olan türbə və 6 metr hündürlüyü olan günbəz



təşkil edir. Onun içərisində bir qəbir vardır. Bu qəbrin üzərində heç bir kitabə olmadığı üçün onun kimə məxsusluğu dəqiq müəyyən edilməmişdir. Yalnız kənd əhalisinin dediklərindən belə məlum olur ki, bu məzar yeddinci imam Museyi-Kazımın oğlu Seyyid Əqilə məxsusdur. O da Abbasilərin zülmündən qaçaraq bölgənin bu iri yaşayış yerinə pənah gətirmiş, burada əhali arasında bir imam övladı kimi böyük hörmət qazanmış və ölümündən sonra qəbri üzərində türbə inşa edilmişdir.

Qeyd edək ki, Seyyid Əqilin qardaş və bacıları da Azərbaycanda və qonşu ölkələrin ərazisində dəfn edilmişlər. Belə ki, onun qardaşları Səfi (Səffan) Ordubadın Düylün kəndində, İbrahim Şərurun Xanlıqlar (Parçı) kəndində, Əhməd Zəngəzurun Mehri rayonunun Bufçar kəndində, Qasım Təbriz şəhəri yaxınlığında Sofiyan qəsəbəsində, bacıları Hökümə xanım Abşeron rayonundakı Şıx kəndində, Rübabə xanım isə İraq ərazisində dəfn olunmuşlar.

Naxçıvan əhalisinin ən çox ziyarət etdiyi müqəddəs yerlərdən birinə çevrilmiş bu imamzadə türbəsi və onun digər binaları olan məscid, təkyə və sairənin heç bir kitabəsi günümüzədək gəlib çatmamışdır. Yalnız türbənin daxili divarlarında dini məzmunlu sözlər yazılmışdır. Divarlarda gəc və kaşı üzərində yazılan bu kəlmələri AMEA-nın müxbir üzvü, professor F.Səfərli tədqiq etmiş və belə nəticəyə gəlmişdir ki, həmin yazılar hicri-qəməri 1138-ci ildə (miladi 1725-ci ildə) Mehdi adlı xəttat tərəfindən yazılmışdır.

İmamzadə binası XVIII-XIX və XX əsrlərdə yenidən bərpa edilmişdir. Burada 1951, 1993 və 2006-2007-ci illərdə bərpa işləri aparılmışdır. Müxtəlif vaxtlarda aparılan bu təmir-bərpa işləri zamanı abidənin eyvanı hörülərək dəhlizə çevrilmiş, insanların ibadət etmələri üçün binanın qərb tərəfinə düzbucaqlı formalı məscid və qoşa minarə əlavə edilmişdir. Bişmiş kərpiclə inşa olunmuş bina kompleks halına salınmışdır. Yəni əvvəlcə türbənin indiki görünüşündə olduğu kimi qoşa minarələri olmamışdır. Bu, son bərpa işləri zamanı tikilmişdir.

Nehrəm imamzadəsində hazırda təmir işləri aparılır.

### Parçı imamzadəsi

Muxtar respublika ərazisində günümüzədək qalan imamzadə abidələrindən biri də Şərur rayonunun Xanlıqlar kəndindədir. Əslində, bu imamzadə keçən əsrin əvvəllərində Xanlıqlar kəndi ilə birləşdirilən Parçı kəndində yerləşir. Elə kəndin adı ilə “Parçı imamzadəsi” adlanır. Yerli əhali tərəfindən böyük hörmətlə ziyarət edilən dini abidə kəndin şimal hissəsində yerləşir. Günbəzi böyük olan bu imamzadənin mərkəzi salonunda bir qəbir vardır. Son dövrlərdə aparılan təmir işləri zamanı qəbrin üstü götürülmüş, başdaşı və sinədaşı qoyulmuşdur. Lakin üzərində heç bir kitabə yoxdur. 1925-1928-ci illərdə Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin Naxçıvan şöbəsi tərəfindən aparılan araşdırmalar zamanı Parçı kəndindəki bu abidə də qeydə alınmışdır. Belə ki, 1928-ci ilə aid 40 nömrəli protokolda göstərilmişdir ki, Xanlıqlar kəndinə bitişik Parçı kəndində üstündə böyük günbəzi və geniş həyəti olan bir pir vardır ki, camaat onu “Şahzadə İbrahim ibn Musa” ziyarətgahı adlandırır. Həmin cəmiyyətin üzvlərindən olan Məhəmməd Rasizadə bu haqda nəşr etdirdiyi məqaləsində göstərmişdir ki, qəbrin kitabəsində “İbrahim ibn Musa” yazılmışdır. Həmin illərdə qəbrin üzərindəki tarixi kitabə onun İbrahim Musa oğluna aid olduğunu göstərirdi. Təəssüf ki, günümüzədək bu məlumatı bildirən kitabə qalmamışdır. Yerli əhalinin dediklərindən aydın olur ki, bu qəbir yeddinci imam Museyi-Kazımın oğlanlarından biri olmuş İbrahimə məxsusdur. O, bu kənddə məskunlaşmış və burada da dünyasını dəyişərək dəfn edilmişdir. Əsrlərdir ki, bölgə əhalisi onun xatirəsinə tikilmiş bu imamzadəyə gələrək onun qəbrini ziyarət edir.

Bütün Azərbaycanda, xüsusilə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsində imamzadə komplekslərinin tikilməsi Səfəvilər dövrü (1501-1736-cı illər) üçün xarakterikdir. Belə komplekslərin səciyyəvi xüsusiyyətləri əvvəllər mövcud olmuş dəfn tikililərinin təmir-bərpa və yenidənqurma yolu ilə abadlaşdırılmasından və bərpa edilmiş məqbərəyə bitişik məscid, təkyə və digər xidməti otaqların tikilməsi yolu ilə dini kompleksin yaranmasından ibarət olmuşdur. Səfəvilər dövründə formalaşdığına görə imamzadə kompleksləri, əsasən, bu dövlətin əhatə etdiyi torpaqlarda dəfn edilmiş imamlar və onların övladları üçün tikilmişdir.

**İlhami ƏLİYEV**
*tarix üzrə fəlsəfə doktoru*

# Sağlam ailə sağlam cəmiyyətin əsasıdır

*Sədərək Kənd Mərkəzində “Ailələrdə sağlam həyat tərzinin aşılanması, reproduktiv sağlamlıq, erkən və qanqohumluğu nikahlarının fəsadları” mövzusunda tədbir keçirilib.*

Tədbiri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Vüsalə Əliyeva açaraq Sədərək rayonunda ailələrin, eləcə də qadınların sağlamlıqlarının qorunması üçün həyata keçirilən tədbirlərdən, ailə dəyərlərinin yaşadılmasından danışıb.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova “Ailədə sağlam həyat tərzinin aşılanmasında qadının rolu” mövzusunda çıxış edərək bildirib ki, bu gün dünyaya gələn uşağı milli ruhda böyütmək, cəmiyyətə layiqli vətəndaş hazırlamaq baxımından qadınların üzərinə böyük məsuliyyət düşür. Ana yeni nəsli mövcud ictimai şəraitdə həyata hazırlamalı, ailə şəraitində şəxsiyyətin normal şəkildə formalaşması üçün övladlara zəruri olan bilik, bacarıq və vərdişləri mənimsətməlidir. Qadınlarımız nəsillərarası münasibətin qorunub saxlanmasına, ailələrdə böyüyən övladlarının bütün əxlaqi keyfiyyətlərə yiyələnməsinə, torpağına, elinə bağlı ruhda tərbiyəsinə çalışmalı, qanqohumluğu, erkən nikahlara qarşı çıxmalı, buna şərait yaratmamalıdır. Faktdır ki, ailə quran tərəflər lazımi tibbi müayinədən keçmədikdə bu nikahlardan çox zaman sağlamlıq imkanları məhdud uşaqlar dünyaya gəlir.

Ramilə Seyidova qeyd edib ki, komitənin apardığı təhlillərə görə, muxtar respublika üzrə sağlamlıq imkanları məhdud uşaqların 116 nəfəri Sədərək rayonunda yaşayır. Bu da rayon üzrə uşaqların 2 faizini təşkil edir. Bu isə bir daha onu göstərir ki, sağlam ailənin formalaşması üçün tərəflərin sağlam həyat tərzi yaşaması, nikaha daxil olarkən və sonrakı dövrdə qadınların reproduktiv sağlamlığı daim diqqət mərkəzində saxlanılmalıdır.

Sonra Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva “Hamilə qadınların qidalanması, gigiyenası və qadınlarda virus hepatitlərinin fəsadları” mövzusunda çıxış edərək qadınların sağlamlıqlarının qorunması yolları, reproduktiv sağlamlıq, həmçinin Sədərək rayonu üzrə doğulan sağlamlıq imkanları məhdud uşaqların əsas xəstəliklərinin yaranma səbəbləri barədə slayd vasitəsilə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Sonda suallar cavablandırılıb, onlara müvafiq mövzularda maarifləndirici broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Məktəblilər Ağbulaq İstirahət Mərkəzinə yollanıblar

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurası tərəfindən Ağbulaq İstirahət Mərkəzində təşkil edilən “Yay məktəbi” hər il olduğu kimi, bu il də şagirdləri qarşılayır. İstirahət Mərkəzinin budəfəki qonaqları Şərur rayonunun ümumtəhsil məktəblərinin əlaçı şagirdləri olublar.***

Belə ki, iyunun 23-də Ağbulaq İstirahət Mərkəzi 60 şagirdi qəbul edib. İlk gün məktəblilər mərkəzlə tanış olub, onlar üçün əvvəlcədən ayrılmış hər cür şəraitə malik otaqlarda yerləşdiriliblər.

Nahardan sonra uşaqlar rəsm məşğələsində iştirak edib, müxtəlif idman oyunlarına qatılıblar. Axşam saatlarında isə məktəblilər şahmat, dama oynayıb, bədii ədəbiyyat mütaliəsi ilə məşğul olublar. Bundan sonra isə vətənpərvərlik mövzusunda film nümayiş etdirilib.

Qeyd edək ki, budəfəki “Yay məktəbi”nin müddəti 3 gündür. Bu günlər ərzində məktəblilər idman məşğələlərində iştirak edəcək, bilik yarışlarına, ustad dərslərinə, müxtəlif komanda oyunlarına, idman yarışlarına qatılacaqlar. “Yay məktəbi”nin üçüncü günü Şahbuz Rayon Uşaq Musiqi Məktəbinin kollektivi tərəfindən məktəblilərə konsert proqramı təqdim ediləcək.

Xatırladaq ki, “Yay məktəbi” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Təhsil, Gənclər və İdman, Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Həmkarlar İttifaqları Şurasının iştirakı ilə reallaşıb.

**Nail ƏSGƏROV**

## Ramazan bayramı birlik və bərabərliyin, xeyirxahlıq və şəfqətin rəmzidir

***Ramazan bayramının xalqımızın həyatında ayrıca bir yeri var. Bu ayda müsəlmanlar Allah və din qarşısında vicdani borclarını daha dolğun ödəmək fürsəti əldə edir, mənəvi zənginliyin və əxlaqi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar. İslam dininə görə, oructutanlar Allahın sevgisini qazanmış olurlar. Ramazan ayı Allahı dərk etmək, ruhən təmizlənmək və Uca Yaradana yaxınlaşmaq ayıdır. Müqəddəs kitabımız "Qurani-Kərim"in nazil olunduğu bu ay insanlar arasında birlik və bərabərliyin, xeyirxahlıq və şəfqətin, Uca Yaradana və ilahi hikmətə bağlılığın təntənəsini nümayiş etdirir.***



Ramazan bərabərlik ayıdır. Bu ay varlıdan kasıba kimi, hamı Allahın bəndəsi olduğunu anlayır. Çünki iftar vaxtı çatanadək suyu belə, içə bilməyən insan bu vəsilə ilə Yaradanın böyüklüyünü dərk edib ona şükür edir. Artıq müqəddəs Ramazan ayı başa çatmaq üzrədir. Bu günlərdə bütün İslam dünyası Ramazan bayramını qeyd edəcək.

Ramazani-Şərif müsəlmanlar üçün çox müqəddəs və mübarək aydır. Çünki "Qurani-Kərim" bu ayda nazil olmağa başlamış, Məhəmməd Peyğəmbərə bu ayda peyğəmbərlik bəxş edilməklə İslam dini meydana gəlmişdir. İnsanları pis əməllərdən çəkindirən və axirətdə cəhənnəm əzabından qoruyan oruc ibadətinin bu ayda vacib buyurulması "Qurani-Kərim"də belə əks olunmuşdur: *"İnsanlara doğru yolu göstərən, bir yolu açıq dəlillər ilə aydınlaşdıran və (haqqı batildən) ayıran ("Quran") Ramazan ayında nazil edilmişdir. Aya (Ramazan ayına) yetişən şəxslər (bu ayı) oruc tutmalıdırlar; xəstə və ya səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsunlar..." ("əl-Bəqərə", 185).*

Allah elçisi də hədislərindən birində Ramazan orucunun faydalarından bəhs edərkən demişdir: *"Kim inanaraq və mükafatını Allahdan gözləyərək Ramazan orucunu tutarsa, keçmiş günahları bağışlanar".*

Orucluğun başa çatdığı gün Ramazan bayramı kimi qeyd olunur. Həmin gün bütün müsəlmanlar bir-birlərini təbrik edir, vəfat edənlərin məzarlarını ziyarətə gedir, ruhlarına dualar oxuyurlar. Bayram günləri həm də küsülülər barışır, ailə üzvlərinə bayramlıqlar hədiyyə edilər. Bir ay boyunca oruc tutmaq hər bir müsəlman üçün vacib olduğu kimi, Ramazan bayramında da imkanlı şəxslərin fitrə verməleri vacibdir. Peyğəmbərimizin hədislərindən birində deyilir ki, Allah bəndəsindən tələb olunan sədəqə verilməyənədək Ramazan ayında tutulmuş oruc yerlə göy arasında asılı qalar.

Qəlbləri ilahi hikmətlə nurlandıran Ramazan bayramı insanları sülhə, əmin-amanlığa və həmrəyliyə dəvət edir, cəmiyyətimizdə nəcib əməllərin və savab işlərin təntənəsinə yol açır. Bu bayram maddi dünyanın deyil, mənəvi aləmin təntənəsi, coşqusudur. Bütün fəsillərin, ayların ruhunu və onlardan süzülüb gələn mənaları bizə təqdim edən Ramazan bayramını bu il də böyük sevinclə qarşılayırıq. Əlbəttə, bayram günü ən birinci valideynlərimizi təbrik etməli, qulluqlarında durmaqla onlara əsl bayram sevinci yaşatmağa çalışmalıyıq. Allah-Taala "Qurani-Kərim"də valideynlərə hörmət etməyi buyurub. Xüsusilə bayram günlərində ailə üzvlərini sevindirmək, onlara qarşı səmimi məhəbbət nümayiş etdirmək bu bayramın şərtlərindəndir.

Müqəddəs Ramazan bayramı hər il dünya müsəlmanları tərəfindən böyük təntənə ilə qeyd olunur. Bu bayram bütün İslam aləminin həmrəylik və qardaşlıq timsalına çevrilmişdir. Bayram günlərində insanlar arasında Allaha inam, Vətənə, torpağa, xalqa bağlılıq hissindən doğan bir nikbinlik əhval-ruhiyyəsi yaşanır.

Tarixboyu öz mənəvi dəyərlərini uca tutmuş Azərbaycan xalqı da dünya müsəlmanlarının mübarək Ramazan bayramını könül xoşluğu ilə qeyd edir. Bu bayram günlərində Azərbaycan xalqı respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman övladlarımızın unudulmaz xatirəsini ehtiramla yad edir, hər yerdə şəhidlərimizin ruhuna dualar oxunur. Ramazan bayramı, həmçinin insanların Vətən, torpaq, dövlətçilik kimi müqəddəs amallar ətrafında daha sıx birləşməsinə xidmət edir. Məhz bu birlik, həmrəylik dövlətimizin daha da güclənməsini, işğal altındakı torpaqlarımızın tezliklə azad olunmasını təmin edəcəkdir.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə Ramazan bayramı dövlət səviyyəsində qeyd olunmağa başlanmışdır. Ulu öndərimiz xalqımıza Ramazan bayramının böyük coşqu və sevinclə qeyd olunması kimi müqəddəs bir ənənəni miras qoymuşdur. Bu ənənə ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilir. Bunun nəticəsidir ki, Azərbaycanda dövlət-din münasibətləri çox yüksək səviyyədə inkişaf edir. Bu gün Azərbaycan dünyanın ən tolerant ölkəsidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizdə mənəvi dəyərlərin qorunmasına xüsusi diqqət göstərildiyini bildirərək demişdir: ***"Azərbaycan müasir dövlətdir, dünyəvi dövlətdir. Eyni zamanda öz milli və dini ənənələrinə sadiq olan dövlətdir. İslam dəyərləri bizim milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir və müqəddəs Ramazan ayı bütün dövrlərdə Azərbaycan xalqının qəlbində yaşamışdır. Azərbaycan o ölkədir ki, burada bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır və bu, bizim böyük sərvətimizdir".***

Naxçıvan Muxtar Respublikasında da milli və mənəvi dəyərlərimizin qorunmasına və təbliğinə xüsusi diqqət yetirilir, dini bayramlarımız ən yüksək səviyyədə qeyd edilir, ziyarətgahlarımız, məscidlərimiz təmir və ya bərpa olunur. Hər il Ramazan ayının fəzilətlərinin həyata keçirilməsi, iftar süfrələrinin açılması və bu bayramın həmrəyliklə qeyd edilməsi ənənə halını almışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"İnsan mənəviyyatının saflaşması, əxlaqi dəyərlərin bərqərar olması işinə yönəldilmiş hər bir fəaliyyət yüksək qiymətə layiqdir. Muxtar respublikamızda da dini və mənəvi dəyərlərin qorunub yaşadılmasına, İslamın müqəddəs ayin və bayramlarının qeyd edilməsinə xüsusi diqqət yetirilir".***

**Səbuhi HÜSEYNOV**

## "Göy quş" tamaşasına ictimai baxış olmuşdur

İyunun 23-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında dünya şöhrətli dramaturq, yazıçı, Nobel mükafatı laureatı Moris Meterlinkin məşhur ikihissəli "Göy quş" tamaşasına ictimai baxış olmuşdur. Qeyd edək ki, M.Meterlinkin "Göy quş" pyesi onun ən gözəl səhnə əsərlərindən biridir. Dramaturq başqa pyesləri kimi, bu əsərində də xalq nağılının formasından istifadə etmişdir. Balaca oğlan Tiltil (Vəli Babayev) və onun bacısı Mitil (Heyran Abdullayeva) kasıb bir oduncunun uşaqlarıdır. Milad bayramı axşamı onlar Pəridən (aktrisa Zəminə Məmmədova) Göy quşu axtarıb tapmaq tapşırığını alırlar. Nağıl qəhrəmanı olan balaca uşaqları əhatə edən əşyalar və canlılar da onlara qoşularaq Göy quşun ardınca gedirlər. Lakin dramaturq bu əşya və canlıları da iki cəbhəyə bölərək özünün simvolik baxışları ilə onları dost və düşmənə, xeyir və şər qüvvələrə ayırır.

Balaca Tiltil və Mitil müxtəlif sirli ölkələrə səyahət edirlər. Tamaşada uşaqları Xatirələr ölkəsində babası və nənəsi ilə görürük. Onların Gecənin sarayına gəlməsi və başqa yerlərdə olması da maraqlı səhnələrdir. Dramaturq bu səhnələrdə insanın təbiət qüvvələri, aclıq və müharibə üzərində qələbəsi fikirlərini simvolik şəkildə ifadə edir.

Qeyd edək ki, tamaşada geniş aktyor kollektivi rol almışdır. Azərbaycan Respublikasının Xalq artisti Rza Xudiyev, Azərbaycan Respublikasının Əməkdar artistləri Bəhruz Haxverdiyev, Əli Əliyev, Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Vüsal Rzayev, Kəklik Novruzova, aktyorlar Zakir Fətəliyev, Nazlı Hüseynquliyeva ilə yanaşı, gənc aktyorlar Səyyad Məmmədov, Fatimə Yusifli, Anar Eyvazov, Mehri Nəbiyeva və başqalarının da rol aldığı tamaşa maraqlı səhnə həllini tapmışdır.

Tamaşanın quruluşçu rejissoru Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidovdur. Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyevanın ilk səhnə tərtibatı uğurludur və nağıl dünyasını əks etdirir. Səhnə tərtibatında simvolik elementlər özünü aydın göstərir. İşıq elementləri, xüsusilə kaleydeskop işıq effektləri səhnəyə əlvanlıq gətirir. Tamaşanın musiqi tərtibatı sənətşünaslıq üzrə fəlsəfə doktoru Natəvan Qədimovaya məxsusdur. Seçilmiş musiqilər hadisələrin gedişindəki dramatizmi anlamaq və duymaq baxımından tamaşaya uyğundur.

Tamaşadan sonra çıxış edənlər – Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov, Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva, Xalq rəssamı Hüseynqulu Əliyev və başqaları tamaşa haqqında fikir və rəylərini bildirmişlər.

**Əli RZAYEV**

## Naxçıvan Dövlət Universitetinin müəllimləri nüfuzlu mükafata layiq görülüblər

*"Avropa Nəşr Mətbuat Evi" mükafat komissiyasının qərarı ilə Naxçıvan Dövlət Universitetinin üç müəllimi "Ən yaxşı vətənpərvər tədqiqatçı-alim" qızıl medalı ilə təltif olunub.*

Universitetin Tibb fakültəsinin dekanı, dosent Elsəvər Əsədov bitki mənşəli arıçılıq məhsullarının biokimyəvi, bioekoloji xüsusiyyətləri, keyfiyyət göstəriciləri sahəsində apardığı uğurlu elmi tədqiqatlarına, o cümlədən elmi-publisistik kitablarına, dərs vəsaitlərinə və ölkədə biologiya elminin inkişafına göstərdiyi xidmətlərə, həmin fakültənin Tibbi klinik fənlər kafedrasının dosenti, tibb üzrə elmlər doktoru İsa Abdullayev kəskin destruktiv pankreatitlərin kriodestruksiyası, müalicəsi, peritonitlərin kompleks müalicəsinin nəticələrinin yaxşılaşdırılması yolları, həmin kafedranın dosenti Gültəkin Əliyeva isə izoimmunizasiya fonunda gedən xroniki toksoplazmozun hamiləliyin başa çatmamasında etioloji rolu sahəsində apardıqları uğurlu elmi tədqiqatlara görə "Ən yaxşı vətənpərvər tədqiqatçı-alim" qızıl medalına layiq görülüblər. Mükafat komissiyası alimlərin elmi-publisistik kitablarını və ölkədə tibb elminin inkişafına göstərdikləri xidmətləri də nəzərə alıb.

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov son illər səhiyyə xidməti sahəsində həyata keçirilən məqsədyönlü tədbirlərdən, muxtar respublikada peşəkar həkimlərin işlərinin layiqincə qiymətləndirilməsindən danışaraq universitet müəllimlərinin qazandığı bu uğuru Naxçıvanda səhiyyə sisteminə göstərilən qayğının bariz nümunəsi kimi dəyərləndirib.

Tibb elmləri doktoru İsa Abdullayev mükafata layiq görülənlər adından minnətdarlıq edib.

Sonra "Ən yaxşı vətənpərvər tədqiqatçı-alim" qızıl medalı və diplomlar müəllimlərə təqdim olunub.

**Səadət ƏLİYEVA**

## Oftalmoloji xidmət keyfiyyətcə yeni bir mərhələyə qədəm qoyub

*Dünən Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin peşəkar mütəxəssisləri tərəfindən Naxçıvan Muxtar Respublika Xəstəxanasında yerli oftalmoloq-həkimlər üçün maarifləndirici seminar keçirilib. Tədbiri giriş sözü ilə mərkəzin direktoru, respublikanın baş oftalmoloqu, Əməkdar elm xadimi Elmar Qasımov açıb.*

Mərkəzin direktor müavini Ceyhun Nəzərli, həkim-oftalmoloqlardan Humay Bayramova, Fərəh Abduləliyeva, Müşfiq Kərimov, Xaliq Əliyev, endokrinoloq Oqtay Hüseynov və başqaları çıxış edərək bildiriblər ki, 70 ildən çoxdur, fəaliyyət göstərən bu mərkəz milli oftalmologiya elminin yaranmasına, inkişafına, ölkə əhalisinin ixtisaslaşdırılmış oftalmoloji xidmət ilə təmin edilməsinə yönəldilmiş çoxillik fəaliyyətə əsaslanır. Vurğulanıb ki, yaradılmış şərait nəticəsində Azərbaycanda oftalmoloji xidmət inkişaf etmiş ölkələrin qabaqcıl texnologiyasını tətbiq etməklə keyfiyyətcə yeni bir mərhələyə qədəm qoyub. Milli Oftalmologiya Mərkəzinin müasir avadanlıqlarla təchiz olunması, kadr potensialının gücləndirilməsi dünyada aparılan bütün növ əməliyyatların bu səhiyyə müəssisəsində də həyata keçirilməsinə şərait yaradıb. Artıq həmvətənlərimizin yüksəkixtisaslı oftalmoloji yardım üçün digər ölkələrə getməsinə ehtiyac qalmayıb.

Humanitar aksiya çərçivəsində keçirilən maarifləndirici tədbirdə təcrübə mübadiləsi aparılıb, göz xəstəliklərində müasir müayinə və müalicə üsulları barədə məlumat verilib.

Xatırladaq ki, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həkim-oftalmoloqları, anesteziloqları, rezident-həkimləri, tibb bacıları və texniki heyətdən ibarət geniş səyyar briqadası son üç ay ərzində Naxçıvan Muxtar Respublika Xəstəxanasında dördüncü dəfə humanitar tibbi aksiya keçirir.

İyunun 22-dən başlayaraq üç gün davam edəcək növbəti aksiya zamanı müxtəlif göz problemlərindən əziyyət çəkən, ümumilikdə, 200-dən artıq xəstənin müayinə və müalicəsi, 15 nəfərin cərrahi əməliyyatı nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Güləş birinciliyinə yekun vurulub

*26 İyun – Azərbaycan Respublikasının Silahlı Qüvvələri Gününə həsr olunmuş yeniyetmələr arasında (2004-2006-cı illər təvəllüdlü) sərbəst güləş üzrə açıq birinciliyə yekun vurulub.*



İslam Hümbətov adına Uşaq-gənclər idman məktəbinin keçirdiyi birincilikdə Beynəlxalq Güləş Federasiyasının qaydalarına uyğun olaraq idmançılar 26, 29, 32, 35, 38, 42, 47, 53, 59, 66 və 73 kiloqram çəki dərəcələrində mübarizə aparıblar. Yarışın yekun nəticəsinə əsasən Namiq Əlizadə, Nicat Ocaqquliyev, Elvin Zamanov, Tuncay Məmmədov, Rəşad Qəmbərov, Fərid Rzayev, Qəmbər Qasımov, Nuruağa Nəcəfov, Heydər Nəcəfov, Ayxan İsmayılov və Nurəddin Əliyev qalib adını qazanıblar.

Qaliblərə Uşaq-gənclər idman məktəbinin diplomları təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 524